**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

# MƏRASİM VƏ UŞAQ FOLKLORU

MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN FƏNN

**PROQRAMI**

BDU-nun Filologiya fakültəsi Elmi Şurasının 5 iyun 2015-ci il tarixli 07 saylı iclasının qərarı ilə təsdiq olunmuşdur

**BAKI-2015**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

# MƏRASİM VƏ UŞAQ FOLKLORU

MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN FƏNN

**PROQRAMI**

**FİLOLOGİYA: 060201**

BDU-nun Filologiya fakültəsi Elmi Şurasının 5 iyun 2015-ci il tarixli 07 saylı iclasının qərarı ilə təsdiq olunmuşdur

**BAKI - 2015**

**Tərtib edən və nəşrə hazırlayan** Ü.A.Nəbiyeva
filologiya elmləri namizədi, dosent

**Redaktoru:** S.H.Orucova
filologiya üzrə elmlər doktoru, professor

**Rəyçilər:** S.G.Rzayev
filologiya üzrə elmlər doktoru
K.F.İslamzadə
filologiya elmləri namizədi, dosent

**“Bakı Universiteti” nəşriyyatı**
**2015**

# İZAHAT VƏRƏQƏSİ

Bu gün Azərbaycan mərasim və uşaq folklorunun tədqiqi müasir qloballaşma və dünya elmi ilə inteqrasiya dövründə ayrı-ayrı xalqların öz milli-mənəvi dəyərlərinə qayıdışı və onun layiqli qiymətləndirilməsi istiqamətində mühüm və aktual problemlərdəndir.

Mərasim folkloru erkən dövrlərdə insanların ayrı-ayrı təbiət hadisələrinə dərk edə bildiyi, qavrayıb başa düşdüyü formada münasibəti, yağışın yağması, günəşin çıxması, küləyin əsməsi, göyün guruldaması və s. təbii hadisələrə baxışı nəticəsində meydana gələn saysız folklor nümunələrində, həmçinin Noruza hələ doxsan gün qalmış, yəni qışın – Böyük Çillə, Kiçik Çillə mərhələlərində, "Novruzqabağı nəğmələr"də, İlaxır çərşənbələr, o cümlədən milli bayramlarımızda (Xıdır Nəbi, Şum bayramı, İsfəndərməz bayramı, Güləkən bayramı, Novruz bayramı) Novruzdan sonra yaranan və digər mövsüm mərasimi nəğmələrində, məişətlə bağlı, doğum, adqoyma, toy, yas nəğmələrində qorunub saxlanmış və bu günümüzə gəlib çatmışdır.

Milli folklorumuzda lirik və epik növlərin qoruyub saxladığı mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar iri həcmli mətnlərin yaranması üçün zəmin hesab olunmuşdur. Son dövrlərdə tədqiqatçıların diqqətini cəlb edən janrlar etnopsixoloji dərketmə ilə bağlı meydana gələn arxaik düşüncə modellərini ehtiva edir.

Mərasim və uşaq folkloru şifahi xalq yaradıcılığımızın mühüm bir qolunu təşkil edir.

Uşaq folkloru nümunələri uşaq psixologiyasına və şüuruna əsaslanaraq meydana gəlir, uşaqların hələ kiçik yaşlardan yaddaş, nitq mədəniyyətinin formalaşıb möhkəmlənməsinə xidmət edir.

Uşaq folklorunun həm orta ümumtəhsil, həm də ali məktəblərdə tədrisi ümumilikdə, xalq ədəbiyyatımızın öyrənilməsi sahəsində əhəmiyyətlidir.

Mərasim və uşaq folkloru fənni magistratura təhsil pilləsində 30 saat mühazirə, 15 saat məşğələ həcmində tədris edilir.

Proqramda mərasim və uşaq folklorunun predmeti, məqsəd və vəzifələri, şifahi xalq yaradıcığındakı yeri, eləcə də bədii nitq və təfəkkürün inkişafındakı rolu barədə məlumat verilir.

Proqramda mərasim və uşaq folklorunun janr müxtəlifliyi, janrların səciyyəvi xüsusiyyətləri, mövcud elmi-nəzəri münasibət və s. ümumilikdə fənnin tədrisinin əhəmiyyəti barədə bəhs edilir.

Proqram ali məktəb tələbələri, magistrlər və folklor araşdırıcıları üçün nəzərdə tutulmuşdur.

Təqdim olunan proqramdan məktəbəqədər müəssisələrdə çalışan mütəxəssislər, orta məktəb müəllimləri də istifadə edə bilərlər.

Son dövrlərdə Azərbaycanın zəngin milli-mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramının YUNESKO tərəfindən dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi, BMT Baş Məclisinin 21 martı Beynəlxalq Novruz günü elan etməsi bu dəyərləri dünya miqyasına çıxara bilən yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsi işini qarşıya qoymuşdur.

**“Mərasim və uşaq folkloru» kursunun proqrammı**

**Fənnin mühazirə saatlarının mövzuları: (30 saat)**

| | |
|---|---|
| **I Mövzu** | Mərasim folkloru haqqında məlumat – 2 saat |
| **II Mövzu** | Mövsüm mərasim nəğmələri – 2 saat |
| **III Mövzu** | Çillə nəğmələri. İlaxır çərşənbələr – 2 saat |
| **IV Mövzu** | Türk xalqlarında mövsüm mərasimləri – 2 saat |
| **V Mövzu** | Azərbaycan bayramları – 2 saat |
| **VI Mövzu** | “Xıdır Nəbi” bayramı - 2 saat |
| **VII Mövzu** | Novruz bayramı- 2 saat |
| **VIII Mövzu** | Məişət mərasim nəğmələri – 2 saat |
| **IX Mövzu** | Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar – 2 saat |
| **X Mövzu** | Etnopsixoloji düşüncə ilə bağlı yaranan janrlar– 2 saat |
| **XI Mövzu** | Uşaq folkloru haqqında məlumat – 2 saat |
| **XII Mövzu** | Uşaq folklorunun toplanması, nəşri və tədqiqi tarixindən – 2 saat |
| **XIII Mövzu** | Uşaq folklorunun janr sistem - 2 saat |
| **XIV Mövzu** | Yanıltmac, düzgü və sanamalar- 2 saat |
| **XV Mövzu** | Uşaq nəğmələri, oyunları və nağılları – 2 saat |

# I MÖVZU

## Mərasim folkloru haqqında məlumat – 2 saat

Mərasim folkloru Azərbaycan şifahi xalq yaradıcılığının tərkib hissəsi kimi. İnsanların qarşılıqlı əlaqədə olduqları təbiətlə münasibəti. Bitki və heyvanat aləminin insan tərəfindən müqəddəs hesab edilməsi. Onlardakı qüvvənin qadirliyinə inam. Totemizm anlayışının etimologiyası. Bu barədə folklorşünaslıqda mövcud mülahizələr. Apxaik düşüncə kontekstində totemçilik yeri. Totemizm barədə araşdırmalar. Totemizmin bir totem ətrafında toplanmış dini və ya inam strukturunu ifadə etməsi.

Totem inamının onu yaşayanlar üçün dünyəvi işarələr və simvollarla anlama dünyagörüşü kimi qəbul edilməsi. Totemizmin insanla, quş, bitki, heyvan arasında qohumluq əlaqəsi olduğu inamına söykənməsi fikri.

Fetişizm sözünün etimologiyası. İnsanların təbiətə fetişist münasibəti. Bu barədə mülahizələr.

Animizm anlayışının etimologiyası. İbtidai dövr yaradıcılığının müəyyən mərhələsində insanların hər bir əşyanı, təbiət hadisəsini ruhlarla bağlı təsəvvürlər yaratmaq mərhələsi.

Magiyanın bir anlayışı kimi mahiyyəti. Müxtəlif folklor janrlarında – əfsun, and, inanc, fal və s. mətnlərində magiyanın təzahürü. Bu barədə aparılan araşdırmalar.

Antropomorfizm anlayışının etimologiyası. İnsana xas xüsusiyyətlərin təbiət hadisələrinə, bitki və heyvanat aləminə köçürülməsi məsələsi. Antropomorfizmin əks olunduğu folklor mətnləri. Bu mətnlərdə müxtəlif astral səma cisimlərinə münasibət. Folklorşünaslığımızda bu barədə aparılan tədqiqatlar.

Mifologiya haqqında məlumat. Mərasim folkloru və mifologiya arasındakı əlaqə. Mərasim folklorunu əhatə edən bədii mətnlərdə mifik təsəvvürlər. Ayin, ritual mərasimlərdə mifik dünyagörüşünün əksi. Ayrı-ayrı folklor mətnlərində mifik izlərin əks olunması.

Totemizm, fetişizm, magiya, animizm, antromorfizm və b. baxışlarının mərasim folkloruna təsiri.

## II MÖVZU

## Mövsüm mərasim nəğmələri – 2 saat

Qədim insanın dərk edə bilmədiyi təbiət hadisələrinə münasibəti: xalqın gündəlik həyatı ilə bağlı yaranan nəğmələr. Erkən estetik düşüncəni və məişət əxlaqı detallarını əks etdirmək baxımından həmin nəğmələrin iki formada təzahürü. Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr arasında yağışın yağması, günəşin çıxması, küləyin əsməsi, göyün guruldaması və oda, suya, yelə, torpağa etiqadla bağlı yaranan nəğmələr. İlin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran nəğmələr, ayrı-ayrı əmək mövsümlərinin

başlanması və ya məhsulun yığılması ilə bağlı yaranan nəğmələr kimi. Yeni əmək mövsümünün başlanması və məhsulun yığımı ilə bağlı keçirilən mərasim və bayramlar. Xırman nəğmələri. Çəltik mərasimləri. Tütünçü mərasimləri. Üzümçü mərasimləri. Alma yığımı və s.

## III mövzu

## Çillə nəğmələri. İlaxır çərşənbə nəğmələri – 2 saat

Çillə sözünün etimologiyası. Erkən mərasim düşüncəsində qışın çillələrə və Boz aya bölünməsi mərhələləri. Qışın bir çox obrazlarına müxtəlif münasibətlər. Çillələrlə bağlı nəğmələrdə havanın soyuması, insanla onun qarşılıqlı əlaqəsi. Çillələrə animist baxışın təzahürü. Böyük Çilləyə məxsus etnoqrafik detalların nəğmələrdə əksi. Kiçik Çillənin özünəməxsus təbiəti ilə bağlı yaranan nəğmələr. İlaxır çərşənbələr. Burada mövcud olan dörd ünsür. Su, Od, Yel, Torpaq mifizmi. Onların hər biri ilə bağlı yaranan nəğmə və miflər. İlaxır çərşənbələrin sayı və sıra düzümü. Folklorşünaslıqda bu barədə müxtəlif mülahizələr.Su, Od, Yel və Torpaq çərşənbələri.

## IV mövzu

## Türk xalqlarında mövsüm mərasimləri – 2 saat

Türk xalqlarında yazı qarşılama və qışı yola salma mərasimləri. Mövsüm mərasimlərində arxaik rituallar. Mövsüm

mərasimlərində sakrallığın (magik funksiyanın) sıradan çıxması ritualı. Əyləncə funksiyalı oyunlara çevrilmə prosesi.

Altayda «Yıldayaq bayramı». Bayramın əsas mahiyyəti. Altaylardakı Çaqa» xalq bayramı. Bu bayramda müxtəlif mərasimlər. Başqırdların yazın gəlişini, təbiətin oyanışını göstərən bayramları.

Başqırdlarda Günəşi qarşılama mərasimi. Yakut türklərində Tanrının şərəfinə keçirilən yaz bayramı. Günəşə və məhsuldarlıq mərasiminə həsr olunan «İsiax» bayramı. Qazaxıstanda müxtəlif adətlər. Orta Asiya xalqlarında yaz bayramları. Tatarlarda «Karqa botkası» adlanan yaz bayramı. Bu bayramın mahiyyəti. Sibir tatarlarında əməl bayramı və s.

## V mövzu

## Azərbaycan bayramları – 2 saat

Bayram anlayışı haqqında məlumat. Azərbaycanda bayram mədəniyyəti. Mərasim folklorunda xalq bayramlarının tarixi yeri. Bayram düşüncəsi folklorda əksi. Milli bayramlarımızın üç tipi.  Ən qədim məişət və mərasim həyatı ilə bağlı yaranan bayramlar. "Şum" bayramı, İsfəndərməz bayramı, Güləkən bayramı və digər bayramlar haqqında ümumi məlumat. Maldarlıq, əkinçilik mədəniyyəti ilə bağlı yaranan bayramlar. Dini bayramlar (Qurban, Ramazan, Qədirxum və b.). Bayramların əsas məqsəd və xüsusiyyətləri.

## VI mövzu

## “Xıdır Nəbi” bayramı - 2 saat

Mifoloji düşüncədə Xıdır Nəbi obrazı. Folklorşünaslıqda bu barədə aparılan tədqiqatlar Xıdır Nəbi haqqında rəvayətlər. Xıdır Nəbi bayramının əsas səciyyəsi. Bayramın əsas atributları. Bayramın keçirilmə tarixi haqqında mülahizələr. Azərbaycanda Xıdır Nəbi bayramının keçirilməsi. Bayramın Kiçik Çillə ilə bağlılığı. Türk xalqlarında Xıdır Nəbi bayramı.

## VII mövzu

## Novruz bayramı- 2 saat

Novruz sözünün etimologiyası. Novruz bayramının keçirilməsi barədə tarixi mənbələr. Novruz bayramının ayrı-ayrı dinlər və etiqadlarla bağlanması cəhdləri. Novruz mərasimləri. Novruzda arxaik rituallar. Novruz adətləri. Novruzun əsas atributları. Novruz süfrəsi. Səməninin mahiyyəti. Novruzun məhəlli xüsusiyyətləri. Novruzun dörd müqəddəs ünsürlə bağlılığı.

Novruz bayramının dövlət səviyyəsində qeyd olunması. Novruz bayramının YUNESKO tərəfindən dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi. Novruz bayramı ilə bağlı aparılan tədqiqatlar. Bu sahədə A.Nəbiyevin, B.Abdullanın, A.Xəlilin, M.Qasımlının və b. dəyərli araşdırmaları.

## VIII MÖVZU

## Məişət mərasim nəğmələri – 2 saat

Məişət mərasimi nəğmələri. Təsnifi, mövzu və məzmun xüsusiyyətləri. Bu nəğmələrin insan həyatında baş verən ən mühüm hadisələrlə əlaqəsi. Nəğmələrin xalqın gündəlik məişəti ilə bağlı meydana gəlməsi.

Doğumla bağlı yaranan nəğmələr. Xalq poeziyasında övladsızlıq ənənəvi süjeti əsasında doğumla bağlı nəğmələrin yaranması. Bu nəğmələrdə anaya salamatlıq arzusu, uşağın sağlamlığı və s. tərənnüm olunması. Doğumla bağlı mərasim nəğmələrində ağıların yeri. Doğumla bağlı nəğmələrin doğma adamlar tərəfindən oxunması.

Adqoyma mərasimi nəğmələri. Şifahi poeziyamızda adqoyma mərasiminin müxtəlif mərhələləri. Bu mərhələlərin tarixi kökləri. Adqoyma mərasimi haqqında mövcud mənbələr. Bu mərasimin "Kitabi-Dədə Qorqud" eposunda geniş əksi. Eposun boyları adqoyma ilə bağlı müxtəlif inanc və etiqadlar. Hər bir adın özünəməxsus məna xüsusiyyəti və insanın ona verilən ada uyğunluğu. Uşaqları bəd ruhlardan qorumaq məqsədilə qoyulan qeyri-adi adların yaranma tarixi və səbəbləri. Nisbətən sonrakı dövrlərdə dini görüşlərlə əlaqədar qoyulan adlar haqqında.

Toy məişət mərasimi. Şifahi xalq ədəbiyyatı nümunələrində toy mərasiminin nəğmələrinin əksi. Toyun mərhələləri və bununla bağlı yaranan nəğmələr. Hər mərhələdə yaranan nəğmələrin mövzu və məzmun xüsusiyyətlərinə dair. Toy xalq arasında sevinc, fərəh, şərəf rəmzi kimi. Müxtəlif ayin, etiqad və görüşlərin toy mərasimi nəğmələrində əksi. Azərbaycanda mərasim nəğmələri xalqın tarixi birlik prosesində yaranan nəğmələr kimi. Ona etnik xüsusiyyətlərlə bağlı edilmiş müəyyən əlavələr. Toyun müddəti haqqında məlumatlar, onların folklor nümunələrində əksi. Toy mərasiminin adət-ənənələri. Toyun keçirilməsi ilə bağlı qaydalar. Müasir mərhələdə toy mərasimi.

Yas mərasimi nəğmələri. Yas mərasimi formaları və qaydaları. Xalq arasında yas mərasimi nəğmələrinin geniş yayılması haqqında məlumat. Bu nəğmələrin yuğ, yuğlama və ağı adları altında yayılması. Yas nəğmələrinin məzmun xüsusiyyətləri. Yas nəğmələri baş verən ölüm hadisəsi ilə bağlı hüzn və kədəri təzahür etdirən nümunələr kimi. Ağıların xalqımızın qədim nəğmələrindən olub yuğlama sözü ilə bağlı yaranması haqqında. Yas mərasiminin mərhələləri. Torpağa dəfnetmə mərasimi. Ə.Haqverdiyevin yas mərasimi haqqında mülahizələri. Yuğçular və onların bu mərasimdə rolu və bu zaman qopuz çalmaq adəti haqqında. Yas mərasimlərində mərsiyə və mərsiyəçilərin rolu.

Zərdüştilik və islam görüşlərinin bu mərasimə təsiri.

## IX Mövzu
## Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar – 2 saat

Mərasim folkloru milli şifahi yaradıcılıq ənənələrini yeni mərhələyə yüksəldən əhəmiyyətli faktor kimi. Müəyyən adət-ənənələr, sanamalar sayəsində bir çox paremik vahidin, deyimin sonrakı təsəvvürlərdə kiçik janr kimi yaşamaq hüququ qazanan bədii nümunələrin yaranması ilə əlamətdar olması.

Atalar sözü və məsəllər. Onlar xalqın tarixən sınaqdan çıxardığı həyat müşahidələrinin bədii ifadəsi kimi. Formaca kiçik, məzmunca zəngin olan bu nümunələrin özünəməxsus xüsusiyyətləri. Atalar sözü və məsəllərin oxşar və fərqli cəhətləri. Xalq arasında atalar sözü və məsəllərin qanadlı sözlər, ibrətamiz ifadələr və başqa adlar altında yayılması. Atalar sözü və məsəllərin əks olunduğu mənbələr. Orxon-Yenisey kitabələri, türk eposu, orta əsrlərdə yazıya alınan oğuznamələr, Əmsali-türkanə, Əmsali-Məhəmmədəli. Atalar sözü və məsəllərin şifahi dildən yazıya alınması tarixinə bir nəzər. Atalar sözü və məsəllərin ilk dəfə küll halında M.V.Qəmərlinski tərəfindən nəşri. XIX yüzilliyin sonu (“Əkinçi”, SMOMPK), XX yüzilliyin əvvəllərində (“Ziya, “Ziyayi-Qafqaziyyə”, “Molla Nəsrəddin”, “Məktəb”, “Dəbistan”, “Rəhbər” və b.) atalar sözü və məsəllərin nəşri.

Bu sahədə Ə.Hüseynzadə, F.Köçərlinin, R.Əfəndiyevin "Bəsirətül-ətfal" əsərinin, E.Sultanovun, V.Xuluflunun və b. əhəmiyyətli fəaliyyəti, sonrakı illərdə İ.İbrahimovun, P.Əfəndiyevin, V.Vəliyevin, Ə.Saləddinin və b. dəyərli mülahizələri.

Atalar sözü və məsəlləri geniş məzmun dairəsi.

İnanclar. Bu janrın xalq arasında sınama, yozum, yozma, inam adları ilə yayılması. Bu barədə fərqli mülahizələr. İnanclar sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsi kimi. Sınamanın xalq yaradıcılığının bir çox başqa (alqış, qarğış, əfsun, cadu, fal, atalar sözü) janrlarının yaranmasında mühüm rolu. İnancların təsnifi. Məişətlə bağlı inanclar. Təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inanclar. Astral təsəvvürlər sayəsində yaranan inanclar. Əsatiri görüşlərlə bağlı inanclar.

Andlar. Onların toplanma, nəşri və tədqiqi.Andların qədim insanların müqəddəs hesab etdikləri varlıqlara inamı ilə bağlı yaranması. Erkən dövrlərdə anda güclü inamın olması nəticəsində insanın müxtəlif erkən təsəvvürləri ilə bağlı andların meydana gəlməsi. Səma cisimləri ilə bağlı ilk andlar. Nisbətən sonralar bərəkət və duz-çörəklə bağlı yaranan andlar. İnanclarla bağlı yaranan andlar. Dini təsəvvürlərlə bağlı andlar. İnsanın müxtəlif inkişaf mərhələsində etiqad etdiyi varlıqlar, predmetlər və canlılarla bağlı yaranan andlar. Dağla bağlı andlar. Türk xalqlarının şifahi yaradıcılığında dağla bağlı təsəvvürlər.

Şifahi yaradıcılığımızda hər bir andın özünəməxsus yeri, etimoloji kökü.

Alqış və qarğışlar. Onların iki amillə - xeyir və şərlə bağlılığı. Mövzu və məzmun xüsusiyyətləri. Alqış və qarğışların hifz olunduğu mənbələr. Onların toplanması, nəşri və tədqiqi. Alqış və qarğışların məzmun dairəsinə görə qruplaşdırılması. Mərasimlərlə bağlı yaranan alqış və qarğışlar. Məişətlə bağlı yaranan alqış və qağışlar. Mifoloji və dini təsəvvürlərin təsiri ilə yaranan alqış və qarğışlar.

Əfsunlar. Əfsun sözün gücünə inamı əks etdirən bir janr kimi. Bu janrın səciyyəvi xüsusiyyətləri, onun sehrlə bağlılığı. Sehr əfsunun bir atributu kimi. M.H.Təhmasibin sehrlə bağlı fikirləri. Janrın toplanma və nəşri haqqında. A.Nəbiyevin təsnifatı. Əfsunların mövzusuna görə qruplaşdırılması. Təbiət qüvvələrini ram etmək üçün yaranan əfsunlar. İnsanın həyat və yaşayışını təmin edən bitki və heyvanları qorumaq məqsədilə yaranan əfsunlar. İnsanın gündəlik məişəti və sağlamlığı ilə bağlı yaranan əfsunlar.

Yada nəğmələri. Təbiət hadisələrinə təsir göstərmək, bu məqsədlə müxtəlif vasitələrdən, xüsusən daşlardan istifadə. Bu barədə C.Frezerin mülahizəsi. Yada daşı ilə bağlı müxtəlif etiqad və rituallar. Yada nəğmələri haqqında. O.Y.Malov, Z.N.Qumilyov və b. səyyah və salnaməçilərin məlumatı. Yadaçıların icra etdikləri iki funksiyası. Burada yağış Tanrısının

rolu. Daş barədə bizə gəlib çatan müxtəlif məlumatlar. V.V.Bartoldun, Övliya Çələbinin və b. fikirləri. Bu nəğmələrdə Tanrıya xitab və Tanrı etiqadları.

## X MÖVZU

## Etnopsixoloji düşüncə ilə bağlı yaranan janrlar– 2 saat

**Ruh, röya, yuxu, mif** kiçik janr paradiqmaları psixoloji dərketmə prosesində yaranan erkən folklor nümunələri kimi. Folklorda fasiləsiz transfer nəzəriyyəsi və nəzəriyyənin ilk folklor yaradıcılığı barədə başlıca tezisləri. Kiçik janrlardakı oxşar dəyərlərin gen qaynağı ilə bağlılığı.

Psixoloji dərketmə prosesində yaranan janrların özünəməxsusluğu. Fərdi yaradıcılıq üslubu. Həmin janrların kollektiv yaradıcılıq məhsulu kimi yox, fərdi düşüncə ilə bağlılığı. Kollektiv və fərd yaradıcılıq prinsipləri.

## XI mövzu

## Uşaq folkloru haqqında məlumat – 2 saat

Uşaq folkloru xalq yaradıcılığının müstəqil sahəsi kimi. Uşaq folklorunun predmeti, məqsəd və vəzifələri, özünəməxsus xüsusiyyətləri.

Uşaq folklorunun əhəmiyyəti. Körpə uşaqların nitqinin inkişafında, uşaq nitqinin formalaşmasında uşaq folkloru nümunələrinin mühüm rolu. İlk folklor nümunələri.

## XII Mövzu

## Uşaq folklorunun toplanması, nəşri və tədqiqi tarixindən – 2 saat

Rusiyada uşaq folklorunun elmi prinsiplər əsasında toplanması və nəşri. Y.A.Avdeyev, İ.P.Saxarov, P.V.Kiriyevskinin xidmətləri.

XIX yüzilliyin 50-60-cı illərində toplanma və nəşr işində V.İ.Dalın "Rus xalq atalar sözləri", P.A.Bessonovun "Uşaq nəğmələri" kitablarının əhəmiyyəti.

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Q.A.Kudryavtsev, A.T.Mojanski, P.V.Şeynin, A.V.Markov və b. fəaliyyəti. «Живая старина», «Этнографическое обозрение» və b. məcmuələrdə uşaq folkloru nümunələrinin nəşri. Q.S.Vinoqradov, Q.İ.Kapitsanın və b. bu sahədə xidmətləri.

N.P.Andreyev, V.İ.Çiçerov, S.Q.Lazutin, V.A.Vasilenko və b. uşaq folklorunun tədqiqatçıları kimi.

Bu işdə SMOMPK məcmuəsi, "Məktəb", "Babeyi-əmir", "Dəbistan", "Rəhbər" və b. jurnalların rolu. F.Köçərlinin "Balalara hədiyyə", S.Axundovanın "Azərbaycan uşaq oyunları", M.Seyidovun "Yanıltmaclar", E.Aslanovun "El-oba oyunu, xalq tamaşası", A.Nəbiyevin "Azərbaycan uşaq folkloru" adlı tədqiqatları.

## XIII mövzu

## Uşaq folklorunun janr sistemi – 2 saat

Uşaq folklorunun təsnifi. Formal və funksional xüsusiyyətləri. Oyunlarla bağlı yaranan janrlar. Oyunlardan asılı olmayaraq uşaq folklorunda yaranan ifa vahidləri.

Uşaq folklorunun yaranma yolu və xüsusiyyətlərini müəyyənləşdirən ən son elmi təsnifat. Rus folklorşünası V.P.Anikinin, A.Nəbiyevin təsnifatı.

Oxşama**.** Bu ad altında xalq arasında yayılan arzulamalar, əzizləmələr və ya bəsləmələr. P.Əfəndiyev oxşamalar haqqında. Onların forma və məzmunu. Oxşamalarda çoxvariantlılıq.

Laylalar. Onların başlıca xüsusiyyətləri. V.A.Vasilenkonun beşik nəğmələri haqqında fikirləri. Laylaların məzmunu.

Uşaq tapmacaları. Forma və məzmun xüsusiyyətləri. Təbiət hadisələri, predmetlər və s. bağlı yaranması. Tapmacaların təsnifi. Heyvanlar aləmindən bəhs edən tapmacalar. Bitkilər haqqında tapmacalar. Oxşar və fərqli cəhətlər.

## XIV mövzu

## Yanıltmac, düzgü və sanamalar- 2 saat

**Yanıltmac.** Yanıltmac sözünün etimologiyası. Uşaq nitqinin inkişafında rolu. Yanıltmacda oxşar səs və söz komplekslərinin rolu. Yanıltmacların təsnifi, mürəkkəb və sadə yanıltmaclar. Yanıltmacın çaşdırma adı altında yayılması. Sadə ifadəli yanıltmaclarda oxşar səslərdən istifadə. Mürəkkəb çaşdırmalarda çox saylı söz tərkiblərinin iştirakı.

Düzgülər. Onların uşaq folklorunda yeri, başlıca xüsusiyyətləri. Düzgülərdə ritm və ahəng uyğunluğu. Düzgülərdə əsas komponentlər. Rabitəli, rabitəsiz və ara komponentlər, onların bir-biri ilə əlaqəsi.

Acıtmalar. Forma və məzmun xüsusiyyətləri. Acıtmanın bəzən xalq arasında "öcəşmə" və "höcətləşmə" və s. adlar altında toplanması. Acıtmalarda mənfi xüsusiyyətlər tənqid hədəfi kimi.

Sanama uşaq folklorunun tipik janrı kimi. Sanamalar ibtidai insanların təbiətdəki predmetlərin sayını, sırasını, rəngini və s. müəyyənləşdirilməsinə kömək edən poetik nümunə kimi. Sanamanın əsas xüsusiyyəti. Sanama barədə müxtəlif mülahizələr.

## XV Mövzu

## Uşaq nəğmələri, oyunları və nağılları – 2 saat

Uşaq nəğmələri. Bu nəğmələrdə uşaqların arzu və istəyinin tərənnümü. Nəğmədə düzgüyə oxşar komponentlər. Uşaq nəğmələrində özünəməxsus poetik üslub. Uşaq nəğmələrinin körpələrin psixologiyasına, təsiri. Bu nəğmələrin yayılması. Uşaq nəğmələrinə dair nümunələr.

Uşaq oyunları. Bu oyunlar xalq oyunlarının mühüm bir qolu kimi. M.Kaşğarinin "Divanu-lüğəti-t-türk" əsəri oyunlar haqqında ilk mənbə kimi. Onların məzmun və forma xüsusiyyətləri.

Uşaq oyunlarının A.Nəbiyev, R.Qafarlı tərəfindən təsnifi. Cəldlik, çeviklik və hərəkətlə bağlı oyunlar. Bu oyunlarda pantomim, him-cim və s. hərəkətlərin istifadəsi və rolu. Say sistemi ilə bağlı yaranan oyunlar. Ayin, etiqad və mərasimlərlə bağlı yaranan nümunələr. Bu qrup oyunlarda ritualların qorunub saxlanması "Qodu", "Yel baba" oyunları.

Gözbağlıca oyunları. Spesifik xüsusiyyətləri, yayılması və əhəmiyyəti.

Uşaq nağılları. Uşaq nağıllarının özəl xüsusiyyətləri. Bu nağılların tərbiyəvi əhəmiyyəti. Alleqorik nağıllar. Bu nağıllarda iştirak edən obrazların səciyyəsi. Uşaq nağıllarının tədqiqi.

## Məşğələ mövzuları – 15 saat

1. Mərasim folkloru haqqında məlumat. Mövsüm mərasim nəğmələri – 2 s.
2. Çillə nəğmələri. İlaxır çərşənbələr – 2 s.
3. Azərbaycan bayramları. Xıdır Nəbi bayramı – 2 s.
4. Novruz bayramı – 2 s.
5. Məişət mərasimi nəğmələri – 2 s.
6. Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar – 2 s.
7. Uşaq folklorunun toplanması, nəşri və tədqiqi tarixindən – 2 s.
8. Uşaq folklorunun janr sistemi – 1 s.

## Fənn üzrə tövsiyə olunan ədəbiyyat:

### Azərbaycan dilində:

### Nəzəri ədəbiyyat:


1. Abdulla Bəhlul. Azərbaycan mərasim folkloru. Bakı, Qismət, 2005, 208 s.
2. Aslanov E. El-oba oyunları. B., 1980
3. Bilal Alarlı. Azərbaycan əmək nəğmələri. Birinci kitab: Janr özəllikləri və poetik xüsusiyyətləri. Cəlilabad, sözün işığı, 2013, 182 s.
4. Əsgər R. Mahmud Kaşğari və onun “Divani-lüğat- it Türk” əsəri. Bakı: “MBM”, 2008, 432 s.
5. Nəbiyev A. El nəğmələrixalq oyunları. B., Azərnəşr,1988, 168 s.

6. Nəbiyev A. Azərbaycan uşaq folkloru. B., Elm, 2000, 76 s.
7. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab, Bakı, Apostroff, 2009, 592 s.
8. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., Elm və təhsil, 1992, 600 s.
9. Təhmasib M.H. Adət, ənənə, mərasim. “Ədəbiyyat və incəsənət” qəz., 1965, №31
10. Novruz (toplayanı, tərtib edəni, ön sözün müəllifi A.Nəbiyevdir). B., 1989, 127 s.
11. Novruz bayramı (toplayıb nəşrə hazırlayanı A.Nəbiyevdir). B., 1990
12. Ogəl B. Türk mifologiyası, I cild, Bakı, Səda, 2004, 628 s.
13. Nizamül-mülk. Siyasətnamə. B., Maarif, 1995, 284 s.
14. Köprülü F. Novruz mərasimi. “İkdam” qəz., Ankara, 1992, 24 mart
15. Toy və halay mahnıları. B., Yazıçı, 1980, 98 s.
16. Tapmacalar (nəşrə hazırlayanı V.Xuluflu) B., Azərnəşr,1928, 106 s.
17. Tapmacalar (toplayanı və tərtib edəni N.Seyidov). 1969, 83 s.
18. Təhmasib M.H. Mövsüm və mərasim nəğmələri (namizədlik dissertasiyası). BDU-nun əsaslı kitabxanası. B., 1945
19. Abdullayev B. Azərbaycan şifahi xalq ədəbiyyatının qədim inancları. Tədqiqlər. VI kitab, 1981, s.57-79

20. İbrahimov İ. Atalar sözü və məsəllər. Tədqiqlər. I kitab. B., Azərnəşr,1961, 148 s.

**Praktik ədəbiyyat:**

21. Atalar sözü (tərtib və ön sözün müəllifi Cəlal Bəddili (Məmmədov). Bakı, Öndər, 2004, 264 s.
22. Azərbaycan əmək nəğmələri. İkinci kitab. Mətnlər toplusu. (Tərtib edəni ön sözün və şərhlərin müəllifi Bilal Alarlı). Bakı, Sözün işığı, 2013, 162 s.
23. Nəğmələr, inanclar, alqışlar (toplayanı tərtib edəni A.Nəbiyev). Bakı, Yazıçı, 1986, 213 s.
24. Sehirli sünbüllər, miflər. (Toplayanı A.Nəbiyev), Bakı, Gənclik, 1990
25. Cəfərov N. Azərbaycan yalvarışları lüğəti. B., 2000
26. Mərasimlər, adətlər, alqışlar (toplama, müqəddimə və qeydlər A.Nəbiyevindir), Bakı, Gənclik, 1993, 346 s.
27. Nəbiyev A. İlin Əziz günləri. Bakı, Maarif, 1999, 104 s.
28. Azərbaycanda Novruz (toplayanı, nəşrə hazırlayanı A.Nəbiyev), Bakı, Çıraq, 2012, s.113-269

**Rus dilində:**

**Nəzəri ədəbiyyat:**

29. Аникин В.П., Круглов Я.Г. Русское народное поэтическое творчество. Л., Просвещение, 1983, 416 с.

30. Аникин В.П. Русские народные пословицы, поговорки, загадки, детский фольклор. М., 1957, 396 с.
31. Azərbaycan folkloru antologiyası. I kitab (tərtib edəni Ə.Axundov). B., 1968
32. Тайлор Э. Первобытная культура. М., Политиздат,1989, 573 ы.
33. Виноградов В.С. Русский детский фольклор. I к., Иркутск, 1930
34. Капица О.И. Детский фольклор. Л., Просвещение, 1928, 245 с.
35. Кравцов Н.И., Лазутин С.Г. Детский фольклор. Русское народное творчество. М., 1983
36. Малые жанры русского фольклора. Хрестоматия (Сост. В.Н.Морохин), М., Высшая школа, 1986, 399 с.